The Project is funded
by the European Union

EUROEAST CULTURE
RMCB Unit

**Şərq Tərəfdaşlığının Mədəniyyət Proqramı**
**Regional Monitorinq və Bacarığın Artırılması Bürosu**
**(RMCBU)**

**2010/255-219 saylı**
**EuropeAid Müqaviləsi**

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT SEKTORU VƏ MƏDƏNİYYƏT SİYASƏTİ HAQQINDA İLKİN ANALİTİK HESABATA ƏLAVƏ

## Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Siyasətlərinə dair Tədqiqatlar və Diaqnozlar

Hazırkı sənəd Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Bürosu tərəfindən hazırlanmışdır.

Yanvar, 2015-ci il.

Bu sənəd Avropa Birliyinin köməkliyi ilə tərtib olunub. Onun məzmununa görə yalnız Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Bürosu cavabdehdir. O, əməkdaşlıq edən ekspertlərin rəyini əks etdirir və heç bir halda Avropa Komissiyasının nöqteyi-nəzəri kimi qəbul edilə bilməz.

RMCBU layihəsi HYDEA S.p.A. (İtaliya) və RWTH Aachen University (Reyn-Vestfaliya Texniki Universiteti, Aaxen, Almaniya) ilə əməkdaşlıqda Deutsche Gesellschaftfür Internationale Zusammenarbeit (GIZ) GmbH şirkətinin başçılıq etdiyi Konsorsium tərəfindən həyata keçirilmişdir.

## MÜQƏDDİMƏ

Bu sənəd Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Proqramının Regional Monitorinq və Bacarığın Artırılması Bürosu tərəfindən 2012-ci ilin avqust ayında hazırlanmış və 2013-cü ilin yanvar ayında düzəldilmiş Azərbaycan Respublikasının mədəniyyət sektoru və mədəniyyət siyasəti haqqında ilkin analitik hesabata əlavədir. Hesabat Proqramın veb-saytında (http://www.euroeastculture.eu/en/database-of-materials/view-azerbaijan-analytical-base-line-report-on-the-culture-sector-and-cultural-policy.html) yerləşdirilmişdir.

Hazırkı Əlavə 2012-ci ildən başlayaraq ölkənin mədəni siyasət mühitində baş tutmuş əhəmiyyətli dəyişiklikləri əks etdirir. Bu sənədin məzmununa görə yalnız RMCBU cavabdehlik daşıyır və əməkdaşlıq edən ekspertlərin rəyini əks etdirir. O, heç bir halda Avropa Komissiyasının nöqteyi-nəzəri kimi qəbul edilə bilməz. Sənəd cənab Terri Sandell (tədqiqatların metodoloji prinsiplərinə görə məsuliyyət daşıyan RMCBU eksperti), cənab Luçiano Qloor (RMCBU-nun qrup rəhbəri) və xanım Tetiana Biletskanın (Bacarıqların Artırılması üzrə RMCBU eksperti) əməkdaşlığı ilə RMCBU eksperti xanım Əsmər Abdullayeva tərəfindən hazırlanmışdır.

2013-cü ildə RMCBU Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Siyasətləri və Tendensiyalarına dair Regional Tədqiqat Hesabatı və Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Sektoru və Mədəniyyət Siyasətinə dair altı İlkin Analitik Hesabat dərc etmişdi. Hesabatlar Şərq Tərəfdaşlığı və Avropa Birliyi ölkələrində mədəniyyətlə bağlı bütün maraqlı olan tərəfləri özünə daxil edən bir çox şəxslər üçün nəzərdə tutulmuşdu. Həmin sənədlər özündə 2011-ci ilin oktyabr ayından 2012-ci ilin mart ayınadək RMCBU tərəfindən Ermənistanda, Azərbaycanda, Belarusda, Gürcüstanda, Moldovada və Ukraynada həyata keçirilmiş Şərq Tərəfdaşlığı Ölkələrinin Mədəniyyət Siyasətlərinə dair Tədqiqatlar və Diaqnozların nəticələrini cəmləşdirir. Tədqiqatlar yuxarıda adı çəkilən ölkələrin milli mədəniyyət siyasətlərinə fokuslanmaqla praktiki olaraq bütöv Şərq Tərəfdaşlığının Mədəniyyət Proqramına və RMCBU layihəsinin bütün fəaliyyətlərinə strateji göstərişlərin verilməsi üçün nəzərdə tutulmuşdu. Şərq Tərəfdaşlığı ölkələrinin mədəniyyət sektorunda cari vəziyyəti təhlil etmək üçün RMCBU tərəfindən xüsusi təyinatlı sistem hazırlanmışdı. O, ilk növbədə ölkələrin müəyyən siyasətlərinin konseptual müqayisəli analizinə əsaslanırdı və altı yerli mütəxəssislə əməkdaşlıqda, habelə beynəlxalq ekspertin rəhbərliyi altında RMCBU tərəfindən müvafiq beynəlxalq standartlara uyğun olaraq yerinə yetirilmişdi. Hesabatların hazırlanması, dərc olunması və sonrakı irəlilədilməsi Proqramın aidiyyəti olan şəxslərindən və digər maraqlı olan tərəflərdən şərh və rəylərin verilməsinə və beləliklə də Şərq Tərəfdaşlığı ölkələri üçün mədəniyyət siyasəti məsələlərinə dair müzakirələrə səbəb oldu. Şübhəsiz ki, Proqramın həyata keçirilməsi ərzində mədəniyyət siyasəti məsələlərinə dair dialoq mədəniyyətin Şərq Tərəfdaşlığı ölkələrinin milli, regional və yerli inkişaf siyasətlərinə daha yaxşı inteqrasiya olunmasına öz vacib töhfəsini vermiş oldu.

**2012-2014-cü illərdə Azərbaycanın Mədəniyyət Siyasəti kontekstində əhəmiyyətli dəyişikliklər.**

Azərbaycanın inkişafı və ümumi siyasət strategiyası kontekstində mədəniyyət sahəsində güclü bazanın yaradılmasına xüsusi diqqət ayrılır. Mədəniyyətin rolunu artırmaq məqsədilə bir çox qanuni və digər üsullar hazırlandı ki, onların həyata keçirilməsi dövlətin mədəniyyət təşkilatlarının əsas vəzifələrindən biridir və əlbəttə ki, bilavasitə Mədəniyyət və Turizm Nazirliyinin məsuliyyəti altındadır. 2014-cü ildə ölkə prezidentinin fərmanı ilə "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" qəbul olunmuşdur. Bu konsepsiya ölkənin gələcək mədəniyyət inkişafının əsasını təşkil edir və dövlət tərəfindən 2010–2014-cü illərin əsas nailiyyətlərindən biri kimi hesab edilir. Fərman Prezidentin mədəniyyətə aid olan bütün sub-sektorlara müəyyən etdiyi prioritetləri ehtiva etməklə aşağıdakılara xüsusi diqqət yetirir:

- milli irsin qorunub saxlanılması;
- mədəniyyət sektorunda müasirləşdirmə ilə bağlı islahatlar;
- mədəniyyət sektoru və mədəniyyət inkişafı ilə bağlı maarifləndirici aspektlər, yeni istedadların dəstəklənməsi, mədəniyyət işçilərinin iş və professional şəraitinin təkmilləşdirilməsi;
- beynəlxalq əməkdaşlıq;
- yüksəkprioritetli xüsusi mədəniyyət layihələrinin inkişaf etdirilməsi və həyata keçirilməsi;
- mədəniiyət təşkilatları və müəssisələrinin lazımi qaydada qurulması/fəaliyyət göstərməsi üçün qanuni bazanın yaradılması;
- mədəni təşəbbüslər vasitəsilə ölkənin tanıdılması;
- mədəniyyət müəssisələrinin geniş şəbəkəsinin əsasını qoymaq;
- qeyri-hökumət sektoruna (QHT), yaradıcı gənclərə və yeni nəsil incəsənət adamlarının inkişaf etməsi məqsədilə müsbət mühitin yaradılması üçün dəstəyin göstərilməsi.

Bir çox mədəniyyət tədbirləri hələ də dövlət orqanları və müəssisələri tərəfindən idarə edilsə də, son illər ərzində kifayət qədər keyfiyyətli müasir mədəniyyət məhsullarını yaradan müstəqil kommersiya strukturlarının və yaradıcı təşkilatların sayının artması müşahidə olunur. Belə təşkilatların dövlət tərəfindən dəstəklənməsi və maliyyələşdirilməsi böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, beynəlxalq bazarda rəqabət apara biləcək mədəniyyət məhsulunun yaradılmasını təmin etmək üçün əsas diqqət yerli yaradıcı potensiala yönəldilir.

Bu cür fəaliyyətin bir nümunəsi kimi video-meppinq və video-art sahəsində çalışan müstəqil və yaradıcı peşəkarlar komandasından ibarət olan "HIPNOTICA" şirkətini qeyd etmək olar. Onların fəaliyyəti əsasən video-instalyasiya, proyeksiya, layt-art və video-artın digər müasir formalarından ibarətdir. "HIPNOTICA" kommersiya təşkilatıdır və onun komandası Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi kimi əhəmiyyətli dövlət və hökumət müəssisələri, eləcə də biznes sektoru ilə əməkdaşlıq edir. Bu gənclərin həyata keçirtdiyi irimiqyaslı layihələr mədəniyyət sektoru çərçivəsində çalışan müxtəlif strukturların qarşılıqlı əlaqəsi və əməkdaşlığının uğurlu nümunəsidir. Bu, həmçinin, gələcəkdə iqtisadi əhəmiyyətə malik ola biləcək əmələ gələn yerli yaradıcılıq sənayelərinin nümunəsidir.

Bugünkü gündə və son iki il ərzində mədəniyyət idarəçiliyinə görə cavabdeh olan dövlət orqanları (Mədəniyyət və Turizm Nazirliyi, regional mədəniyyət idarəçiliyi departamentləri, Gənclər və İdman Nazirliyi) və eləcə də Heydər Əliyev Fondu aşağıdakılara xüsusi diqqət yetirirlər:

- tarixi abidələrin bərpa olunması və qorunub saxlanılması;
- yeni sərgi məkanlarının yaradılması;
- mədəniyyət sektoru ilə bağlı idarəçiliyin yenidən baxılması və müasirləşdirilməsi;
- yerli və xarici fondlarla, QHT və könüllü təşkilatlarla müasir mövzu və məsələlərlə bağlı birgə layihələrin, sərgilərin, master-klassların, vorkşopların və xüsusi konfransların təşkili;
- bölgələrdə mədəniyyət təşəbbüsləri;
- gənclər təşkilatlarının mədəniyyət layihələrinə cəlb olunması;
- muzeylərin müasirləşdirilməsi və müasir muzey idarəçiliyinin bütün aspektlərinin təkmilləşdirilməsi.

Digər bir irəliləyiş Gənclər və İdman Nazirliyinin veb-saytlarının yenilənməsinə səbəb olan elektron hökumət portalının tətbiq edilməsidir. Həmin saytlarda Nazirliyin fəaliyyəti haqqında məlumatlar, cari

qanunvericilik, habelə başa çatdırılmış proqram və layihələrin həyata keçirilməsi haqqında müvafiq informasiya və hesabatlar əks olunub.

Film sektorunda müstəqil şirkətlər layihələri daha çox öz təşəbbüsləri ilə həyata keçirir ki (10 il əvvəl dövlət tərəfindən sifariş edilmiş layihələr əksəriyyət təşkil edirdi), bu da ölkənin beynəlxalq miqyasda tanınmasını artırmaq məqsədilə dövlət orqanları tərəfindən irəli gələn bir dəstəkdir. Müstəqil şirkətlər Azərbaycan milli kinematoqrafı üçün yaxşı perspektivlər vəd edən professionalları yetişdirməyə başlayıb. Dövlət Film Fondunun dirçəlişindən sonra film yaradıcılığı sərmayələr üçün prioritet bir sahə kimi hesab edilir. Dövlətin "Azərbaycanfilm" kinostudiyası ilə yanaşı "Nərimanfilm", "Adari Films", "Butafilms" və "Salnamə" kimi müstəqil film istehsalı şirkətləri fəal yaradıcılıqları ilə xüsusilə nəzərə çarpır. Qısametrajlı filmlər də Azərbaycanda populyar olmağa başlayır.

Xüsusi maraq doğuran təşəbbüslərdən biri 2012-ci ildə başlayan və Qurban Bünyadov və Eldar Albertsonun başçılıq etdikləri "Cinemasports" yaradıcı qrupu tərəfindən təşkil edilmiş "Kinomarafon" layihəsidir. "Kinomarafon"un iştirakçılarına verilən mövzuda süjet fikirləşib onu çəkmək, montaj etmək və İnternetə yükləmək üçün on saat vaxt ayrılır. "Kinomarafonlar" müxtəlif müddətlərdə hökumət və qeyri-hökumət təşkilatları tərəfindən dəstəklənmişdir (məsələn, Gənclər və İdman Nazirliyi, "İçərişəhər" Tarix-Memarlıq Qoruğu, "DAN" Beynəlmiləlçi Gənclər İctimai Birliyi, "Birgə və Sağlam" İctimai Birliyi və "YARAT" qeyri-kommersiya təşkilatı).

Başqa bir maraqlı təşəbbüs "British Council" kimi tanınmış beynəlxalq təşkilatlarla əməkdaşlıqda teatr sahəsində həyata keçirilən maarifləndirici layihəni qeyd etmək olar. Həmin layihənin müsbət cəhəti tanınmış dramaturqlar tərəfindən yeni işlərin təqdim olunması idi. Layihədə beynəlxalq mütəxəssislərin iştirakı dramaturqlara öz təcrübə və biliklərini bölüşməyə imkan yaratdı.

Müdaxilənin tələb olunduğu problemli sahələr təhsil və təlim, habelə mədəniyyət icmalarının yaradılmasıdır. Bu, dövlətin ümumi strategiyası kimi qəbul olunur. Yeni təhsil və təlim proqramlarına bütün mədəniyyət sub-sektorlarında zərurət duyulur. Bu proses hal-hazırda inkişaf mərhələsindədir.

Hal-hazırda ən yüksək prioritet Azərbaycanın qlobal mədəniyyət məkanına hamar şəkildə inteqrasiya etmək üçün fondların yaradılmasına verilir. Mədəniyyət siyasətinin bu məsələlərdə fokuslanması və müxtəlif fəaliyyətlərin həyata keçirilməsi müsbət bir haldır, lakin istənilən nəticələri əldə etmək məqsədilə qanunvericilik və müvafiq təşəbbüslər baxımından bir çox şeylərin yerinə yetirilməsi olduqca vacibdir.

Mədəniyyətə aid olan təhsil sahəsində islahatlara böyük ehtiyac duyulur, çünki köhnə klassik sistem və tədris konsepti və üsulları əlli ilə yaxındır ki, dəyişməz qalıb. İncəsənət sahəsində idarəçilik ixtisaslı kadrların və müasir incəsənəti yaxından bilən mütəxəssislərin qıtlığı müşahidə olunmaqdadır. İncəsənət sahəsində çalışan vəzifəli işçiləri, eləcə də teatr və incəsənət tələbələri üçün müasir incəsənətin tarixi və nəzəriyyəsi ilə bağlı təhsil proqramlarında çatışmazlığın mövcudluğu bəllidir. Mədəniyyət müəssisələrində dövlət tərəfindən tətbiq edilən tədris proqramlarında müəyyən dəyişikliklərin olmasını müşahidə etmək mümkündür. Ümumi təhsil proqramlarında aparılan islahatlar, müasirləşmə və yüksəkixtisaslı beynəlxalq ekspertlərin cəlb olunması müsbət faktorlar kimi qiymətləndirmək olar. Mədəniyyətlərarası təhsil orta məktəblər və universitetlərin tədris planının bir hissəsi olmalıdır. Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan musiqi, incəsənət və uşaqlar üçün rəsm məktəbləri istisna olmaqla, bu sahə ümumilikdə Təhsil Nazirliyi tərəfindən idarə edilir. Humanitar fənnlər çərçivəsində ümumi milli dəyərlər və eyniyyət, tolerantlıq, çoxdillilik və bərabərlik, tələbələrin dünya mədəniyyətləri, dinləri və ənənələri haqqında məlumatlandırılması kimi mövzulara təhsilin hər bir səviyyəsində müraciət olunur.

"YARAT"ın fəaliyyətini bu baxımdan uğurlu nümunələrdən biri kimi dəyərləndirmək olar. 2011-ci ildə təsis olunmuş bu qeyri-hökumət təşkilatı müasir incəsənət sahəsində çalışmaqla müasir Azərbaycanın milli və beynəlxalq səviyyələrdə inkişaf etdirilməsi və irəlilədilməsinə imkan yaradır. "YARAT" öz missiyasını sərgiləri, maarifləndirici tədbirləri və festivalları daxil edən proqram vasitəsilə yerinə yetirir. "YARAT" fondlar, qalereyalar və muzeylər daxil olmaqla yerli və beynəlxalq incəsənət icmaları arasında olan dialoq və mübadilədə köməkliyini göstərir. "YARAT"ın maarifləndirici tədbirləri özünə beynəlxalq mütəxəssislərin cəlb olunması ilə mühazirə və seminarları, habelə "ARTIM" adlı çətir layihəsi çərçivəsində gənc istedadların inkişaf etdirilməsi layihələrinin həyata keçirilməsini daxil edir. "YARAT" 2012-ci ildə yerli təsviri incəsənəti inkişaf etdirmək məqsədilə yaranmış layihə çərçivəsində müasir incəsənəti təqdim edən ilk qalereya — "YAY" qalereyasını açmışdır. "YARAT"ın çoxşaxəli fəaliyyəti Azərbaycanda əmələ gəlmiş,

gələcək mədəniyyət təşəbbüslərini öz üzərində yaradacaq yeni fenomen haqqında danışmağa imkan verir. Sözsüz ki, bu cür konsepsiya səxavətli sponsorlar cəlb olunmadan maliyyə problemləri ilə üzləşə bilər.

Bir sıra şəxslər, o cümlədən müasir Azərbaycan rəssamları, artıq tanınır və beynəlxalq layihə və sərgilərin təcrübəli iştirakçıları kimi qəbul olunur. Mədəniyyət sahəsində çalışan cavan nəslin də (rəssamlar, yazıçılar, musiqiçilər, bəstəkarlar, fotoqraflar, heykəltəraşlar və s.) özünü inkişaf etdirmək üçün güclü potensialı vardır. Natavan Əliyeva tərəfindən 2013-cü ilin yayında təsis olunmuş "Natavan" yaradıcı studiya-qalereya buna bir sübutdur. O, öz məkanında maraqlı və innovativ layihələri yarada biləcək, ümidlər verən cavan rəssamlar üçün yaradıcı şərait təmin etməyə çalışır. Görkəmli rus fotoqrafları Oksana Yuşko və Artur Bondarev, britaniyalı rəssam və yazıçı Pol Kolduell və fransız fotoqraf Alen Zimer kimi tanınmmış şəxslər həm sərgi və master-klasslar, həm də uşaqlar üçün rəsm, bacarıq və digər sahələr üzrə kurslar keçirdilər. Bu, zamanla ayaqlaşmaq istəyən, beynəlxalq əlaqələrin geniş şəbəkəsini yaradan və müxtəlif mədəniyyət tədbirlərini keçirən yaradıcı qalereya-studiyanın göstərdiyi müasir yanaşmadır.

Mədəniyyət müxtəlifliyi ideyasının irəlilədilməsində müstəqil yaradıcı birliklərinin rolunu "PROSPER CARTOON STUDIO"nun nümunəsində görə bilərik. Bir neçə yaradıcı gənc minimal vəsaitlə üç il ərzində rəqəmsal və informasiya agentliyini yaratmağa və animasiyadan tutmuş korporativ və sosial layihələrin tam şəkildə təmin edilməsinə müvəffəq oldular. Onların geniş müştəri və fəaliyyət bazası özünə həm hökumət, həm də qeyri-hökumət sektorlarını, sosial yönümlü layihələri daxil edir və bölgələrdə fəaliyyət göstərən filiallara malikdir. Bu, həqiqətən də mədəniyyət inkişafının yeni bir növüdür. Müstəqil yaradıcı sektor həm hökumət (Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Banklar Assosiasiyası), həm də qeyri-hökumət kommersiya strukturları ilə əməkdaşlıq etdikdə müəyyən mədəniyyət layihələrini yaradan kreativ mədəniyyət bazasının inkişaf etdirilməsi üçün əlverişli mühit yaradır. Məsələn, "PROSPER CARTOON STUDIO" şirkəti Azərbaycan qanunvericiliyinə uyğun olaraq icbari Korporativ Sosial Məsuliyyət çərçivəsində "Donorbook" layihəsini həyata keçirmişdi.

Şərq Tərəfdaşlığının Mədəniyyət Proqramı beynəlxalq əlaqələrin şəbəkəsini genişləndirmək məqsədilə (o cümlədən, Şərq Tərəfdaşlığının altı ölkəsinin ictimai və mədəniyyət sahəsində çalışan peşəkarlar üçün Mədəniyyət Siyasətlərinin Mübadiləsi Seminarları daxilində) Azərbaycanın mədəniyyət müəssisələri üçün çox faydalı olmuşdur. 2014-cü ilin iyul ayında Bakıda keçirilmiş seminarın açıq sessiyası ilə əlaqədar həmin ərəfədə qəbul olunmuş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" iştirakçılara və mədəniyyət icmasına Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təqdim edilmişdi, iştirakçılar daha sonra həmin konsepsiyanı "Strategiya və siyasət mədəniyyət icması və sektorunun reallığı və tələbatlarına uyğundurmu?" sualı altında müzakirə etmişdilər. Bundan əlavə, Şərq Tərəfdaşlığının Mədəniyyət Proqramı altında üç regional layihə Azərbaycandan bir neçə tərəfdaş cəlb etmişdi.

Yuxarıda göstərilən bir çox müsbət irəliləyişlərə baxmayaraq, mədəniyyətlə bağlı siyasət, planlaşdırma, idarəetmə və maliyyələşdirmə sistemi Azərbaycanın iddia və ambisiyaları, ölkənin daha da müasirləşməsi və tərəqqi etməsi baxımından qarşısına qoyduğu məqsədlərə uyğun deyildir. Mədəniyyətlə bağlı qanunvericilik praktikada tətbiq edilən ardıcıl islahatlarla müşayiət olunmayan dəyişikliklərin yaxşı nümunəsidir. 2014-cü ilin fevral ayında Prezidentin fərmanı ilə qəbul olunan "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" mədəniyyət siyasətinin əsasını təşkil edir və mədəniyyət siyasəti mexanizmlərinin sektorun tələblərinə tənzim olunması üçün əsas alətləri müəyyənləşdirir. "Konsepsiya" nəinki mədəni irsin qorunub saxlanılmasını və professional incəsənət fəaliyyətlərini dəstəkləməsini (keçmiş SSRİ-nin tərkibində olan ölkələr üçün bu adi bir haldır), hətta kinematoqraf və nəşr daxil olmaqla mədəniyyət sənayelərinin inkişaf etdirilməsini də nəzərdə tutur. Eyni zamanda, Azərbaycan mədəniyyətini təmsil edən bir sıra şəxslərin fikrincə "Konsepsiya" mədəniyyət sahəsində olan vəziyyəti təhlil etmir və beləliklə də professional icmaların bir çox ehtiyac və gözləmələrini nəzərə almır. Əminliklə demək olar ki, bu, bütün maraqlı olan tərəflərin ölkənin mədəniyyət siyasətinin formalaşmasında cəlb olunmamasından xəbər verir.

Sovet dövründən qalan mövqe və münasibətlər, habelə Azərbaycanda mədəniyyətin idarə edilməsinin cari dövlət modelindən irəli gələn məhdudiyyətlər səbəbindən "incəsənət və mədəniyyət fəaliyyətləri" Mədəniyyət və Turizm Nazirliyinin dəstək və icazə verdiyi fəaliyyətlər kimi başa düşülür. Azərbaycanın mədəniyyət coğrafiyasının bir hissəsini təşkil etməli "inteqrasiya olunmuş" kommersiya mədəniyyət sektoru yoxdur, yaradıcı sənayelər isə ölkədə bir sektor olaraq demək olar ki, mövcud deyil.

Ciddi dəyişikliklər yalnız dövlətin mədəniyyət müəssisələrinin islah və inkişaf etdirilməsi, həmçinin, QHT və kommersiya mədəniyyət sektorlarının inkişaf etdirilməsi ilə baş verə bilər. Sovet dövründən qalan digər problem cari Dağlıq Qarabağ münaqişəsindən irəli gələn etnik və demoqrafik məsələlərlə bağlıdır. Mədəniyyət müəssisələrində texniki vasitə və avadanlıqların aşağı səviyyədə olması, tədqiqatçılar daxil olmaqla müasir mənbə və texnologiyaların əlçatmazlığı, eləcə də mədəniyyətlə bağlı fəaliyyətlər üçün münasib ictimai yerlərin məhdud olması və mədəniyyət xidmətlərinin aşağı səviyyəsi maraqlı olan tərəflərin fikrincə milli mədəniyyət sektoruna böyük hədə kimi qiymətləndirilməlidir. Qanunvericiliyin müasirləşdirilməsindən yanaşı, professionalların tədris olunması və professional bacarıqların inkişaf etdirilməsi (xüsusilə də muzeylərin idarə edilməsində), mədəniyyət irsinin bərpa olunması/yenidən qurulması milli mədəniyyət nümayəndələri tərəfindən milli mədəniyyət sektorunun başlıca tələblərindən biri kimi hesab edilir.